2024

AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI

# Bülleten
# OKTYABR

# Mərkəzi Bank, ASA və yerli sığortaçılar Türkiyədə keçirilən beynəlxalq sığorta tədbirlərində iştirak edib

Azərbaycan Mərkəzi Bankının (AMB) Baş direktoru Ziya Əliyev, Azərbaycan Sığortaçılar Assosiasiyasının (ASA) İcraçı direktoru Elmar Mirsalayevin başçılıq etdiyi nümayəndə heyəti və yerli sığorta şirkətlərinin təmsilçilərindən ibarət bir qrup nümayəndə Türkiyədə 13-cü "Sığorta həftəsi" çərçivəsində İstanbulda keçirilən "III Beynəlxalq Sığorta Zirvəsi" və Antalyada keçirilən "III Beynəlxalq Sığorta Konqresi və Sərgisi"ndə iştirak ediblər.

"Sığorta həftəsi" çərçivəsində AMB-nin Baş direktoru Ziya Əliyev İstanbulda keçirilən "III Beynəlxalq Sığorta Zirvəsi"ndə Azərbaycanın maliyyə sistemində sığorta sektorunun yeri mövzusunda çıxış edib.

Daha sonra "Sığorta həftəsi" üzrə Antalyada keçirilən "III Beynəlxalq Sığorta Konqresi və Sərgisi"ndə AMB-nin Baş direktoru Ziya Əliyev və ASA-nın İcraçı direktoru Elmar Mirsalayev "Türk dövlətlərinin ekosistemində sığortaçılıq" panelində çıxışçı olaraq iştirak ediblər. AMB-nin Baş direktoru Ziya Əliyev öz çıxışında Azərbaycanın sığorta sektorunda həyata keçirilən islahatlardan və əldə olunan uğurlardan danışıb, ASA-nın İcraçı direktoru Elmar Mirsalayev isə "Türk Dünyası Sığorta Birliyi: Gələcəyə Baxış" mövzusunda çıxış edib.

Antalyada keçirilən "III Beynəlxalq Sığorta Sərgisi"ndə ASA-nın stendi yaradılıb və stendimiz sərgi iştirakçıları tərəfindən rəğbətlə qarşılanıb.

Səfər çərçivəsində ASA-nın İcraçı direktoru Elmar Mirsalayev Türkiyənin Sığorta və Özəl Pensiya Tənzimləmə və Nəzarət Qurumunun sədri Davut Menteş, Türkiyə Sığorta Birliyinin sədri Uğur Gülən, TARSİM-in İcraçı direktoru Bekir Engürülü, "Zurich Yaşam" sığorta şirkətinin baş icraçı direktoru Atilla Benli və türkiyə sığorta sektorunun digər rəsmiləri ilə ikitərəfli görüşlər keçirib.


















## ASA xeyriyyə aksiyası keçirib




ASA artıq 4-cü ildir ki, təşkil etdiyi xeyriyyə aksiyasını bu il də uğurla yekunlaşdırıb. Yerli sığorta şirkətləri olan "A-Qroup Sığorta Şirkəti" ASC, "Azərbaycan Sənaye Sığorta" ASC, “Qala Həyat” Sığorta Şirkəti ASC, “Qala Sığorta” ASC, “Meqa Həyat Sığorta” ASC, “Meqa Sığorta” ASC və “PAŞA Həyat Sığorta” ASC Sığorta” ASC də aksiyaya qoşulub. Xeyriyyə layihəsində sığorta şirkətlərinin ianələri əsasında toplanmış məktəbli ləvazimatları və məktəbli formaları aztəminatlı ailələrə, şəhid və qazi övladlarına və uşaq sığınacaqlarındakı 50 nəfər məktəbliyə tədarük edilib.

## ASA Qazaxıstanın “Milli Günü”ndə iştirak edib




Azərbaycan Sığortaçılar Assosiasiyasının İcraçı direktoru Elmar Mirsalayev Qazaxıstan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Alim Bayelin xüsusi dəvəti ilə Qazaxıstanın "Respublika günü"nə həsr olunmuş rəsmi ziyafətdə iştirak edib. Ziyafətdə İcraçı direktor Elmar Mirsalayev Qazaxıstanın və Özbəkistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirləri ilə ikitərəfli görüşlər keçirib.

## ASA Türkiyənin “Cümhuriyyət günü”ndə iştirak edib



Azərbaycan Sığortaçılar Assosiasiyasının İcraçı direktoru Elmar Mirsalayev Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Cahit Bağcının xüsusi dəvəti ilə Türkiyə Respublikasının yaradılmasının 101-ci ildönümü münasibətilə Türkiyənin Azərbaycandakı səfirliyi tərəfindən təşkil edilmiş təntənəli yığıncaqda iştirak edib. Yığıncaqda İcraçı direktor Elmar Mirsalayevin dövlət rəsmiləri və Milli Məclisin deputatları ilə görüşləri baş tutub.

## ASA-nın İcraçı direktorunun “Xalq qəzeti”ndə geniş müsahibəsi dərc olunub

Azərbaycan Sığortaçılar Assosiasiyasının İcraçı direktoru Elmar Mirsalayevin "Xalq qəzeti"ndə yerli sığorta sektorunda aparılan islahatların uğurlu nəticələrindən bəhs edən "Sığorta sektorunda islahatlar və davamlı inkişaf" başlıqlı müsahibəsi dərc olunub. Müsahibədə yanvar-sentyabr aylarına olan sığorta icmalı təhlil olunub, ötən dövr ərzində sektorda görülmüş işlərə aydınlıq gətirilib.

# ASA Yaşıl Maliyyə və Dayanıqlı İnkişaf Forumu təşkil edib

BMT-nin “29 İqlim müzakirələri: COP29-a gedən yol” təşəbbüsü çərçivəsində Azərbaycan Mərkəzi Bankı, BMT-nin Azərbaycandakı nümayəndəliyi və maliyyə assosiasiyalarının (ASA, ABA, AMFA, AFBİA və “AzFina”) təşkilatçılığı ilə Yaşıl Maliyyə və Dayanıqlı İnkişaf Forumu keçirilib.

Forumda Mərkəzi Bankın sədri Taleh Kazımov, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov və BMT-nin rezident əlaqələndiricisi Nasar Hayat çıxış edərək tədbirin əhəmiyyətinə toxunub, ekoloji tədbirlər çərçivəsində görülən işlərdən danışıblar.

Daha sonra Forumun ilk panelində maliyyə assosiasiyalarının rəhbərləri çıxış ediblər. Azərbaycan Sığortaçılar Assosiasiyasının İcraçı Direktoru Elmar Mirsalayev öz çıxışında yerli sığorta bazarında müşahidə olunan böyümə dinamikasından və sektorun ekoloji tədbirlər çərçivəsində gördüyü işlərdən danışıb. Forum panel müzakirələrlə davam edib.











## Fitch Fransa sığorta bazarının reytinq səviyyəsini endirdi

Fitch Fransa sığorta bazarı üçün təyin etdiyi reytinq dərəcəsini “aa+” səviyyəsindən “a-” səviyyəsinə endirib. Reytinq agentliyi bununla belə bildirir ki, siyasi, fiskal və makroiqtisadi qeyri-müəyyənliklər nəticədə bu qiymətləndirməyə daha da təzyiq göstərə bilər. Qanunvericilikdə nəzərdə tutulan və tənzimləmə siyasətində həyata keçirilən dəyişikliklər istehlakçıların və investorların inamını sarsıda, biznesin həcmini, pul vəsaitlərinin hərəkətini və gəlirləri azalda bilər.



## Təbii fəlakətlərin qlobal sığorta bazarı üçün yaratdığı zərər məbləği açıqlandı



“Aon” 2024-cü ilin 9 ayı ərzində təbii fəlakətlərin sığorta sənayesi üçün yaratdığı zərər məbləğinin 102 milyard dollar olduğunu açıqlayıb. Milton qasırğası və digər təbii fəlakət hadisələrinin təsiri ilə sığorta zərərinin ilin sonuna kimi 125 milyard dollara çatacağı gözlənilir. Bu dövr ərzində sığortalanmış zərərlərin 59 milyard dolları və ya 58%-i konvektiv fırtınalar, 21 milyard dolları və ya 21%-i isə tropik siklonlar nəticəsində yaranıb.

## Lloyd's-un rəhbərliyi dəyişdi – Yeni təyinat

Lloyd's Prudensial Tənzimləmə və Maliyyə Nəzarəti təşkilatlarının təsdiqi və razılığı əsasında Brüs Karnegi-Braunun yerinə Çarlz Roksburqu yeni sədr təyin edib. Çarlz Roksburq İdarə Heyətinin təsdiqindən sonra 1 may 2025-ci il tarixdən etibarən bu vəzifəni icra edəcək. Roksburq, karyerası müddətində həm Böyük Britaniya hökumətində, həm də özəl sektorda, o cümlədən Lloyd's-da böyük təcrübəyə malikdir.



"A-Qroup Sığorta Şirkəti" ASC



*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***46 970 AZN***



"Azərbaycan Sənaye Sığorta" ASC

*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yanğın hadisəsi nəticəsində zərərdəymə*
*Sığorta məbləği:* ***33 441,99 AZN***



"Qala Həyat" Sığorta Şirkəti ASC

*Sığorta növü: İpoteka krediti üzrəborcalanların həyat sığortası*
*Sığorta hadisəsi: Müddətsiz əlillik (Xəstəlik nəticəsində)*
*Sığorta məbləği:* ***46 737, 2 AZN***

## "Qala Sığorta" ASC





*Sığorta növü: Nəqliyyat vasitələrinin tam sığortası*
*Sığorta hadisəsi: Yol nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***30 097,4 AZN***

## "Meqa Sığorta" ASC







*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Sığorta məbləği:* ***35 408 AZN***



## "PAŞA Həyat Sığorta" ASC

*Sığorta növü: Həyatın yaşam sığortası*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi nəticəsində xəsarətalma*
*Sığorta məbləği:* ***110 522,53 AZN***

# Qala Sığorta Qrupunun maliyyə dəstəyi ilə təlim təşkil olunub

Qala Sığorta və Qala Həyat Sığorta şirkətlərinin maliyyə dəstəyi ilə sığorta bazarında peşəkar sığorta agentlərinin yetişdirilməsi məqsədilə təlim təşkil olunub. Sessiya peşəkar təlimçi, ASA Tədris Mərkəzinin direktoru Pərviz Quliyevin moderatorluğu ilə baş tutub. Təlimin sonunda dinləyicilərə sertifikatlar təqdim olunub.








| Sığorta sinifləri | 2023 III rüb | | 2024 III rüb | | Dinamika | |
|---|---|---|---|---|---|---|
| | Sığorta haqları | Sığorta ödənişləri | Sığorta haqları | Sığorta ödənişləri | Sığorta haqları | Sığorta ödənişləri |
| | min manatla | | | | | |
| **Könüllü sığortalar üzrə - cəmi:** | **686,071.2** | **320,151.5** | **765,428.6** | **454,801.3** | **11.57%** | **42.06%** |
| Həyat sığortası üzrə, o cümlədən: | 420,845.3 | 220,636.7 | 495,225.9 | 359,913.0 | 17.67% | 63.12% |
| Həyatın yaşam sığortası | 389,781.2 | 219,342.7 | 460,998.6 | 357,663.8 | 18.27% | 63.06% |
| Həyatın ölüm halından sığortası | 25,362.7 | 1,199.5 | 25,580.4 | 1,845.3 | 0.86% | 53.85% |
| Əmək qabiliyyətinin sığortası | 1,359.1 | 68.0 | 2,810.5 | 145.7 | 106.79% | 114.17% |
| Sağalmaz xəstəliklərdən sığorta | 4,342.3 | 26.6 | 5,836.3 | 258.2 | 34.41% | 872.58% |
| Qeyri-həyat sığortası üzrə, o cümlədən | 265,225.9 | 99,514.7 | 270,202.7 | 94,888.3 | 1.88% | -4.65% |
| Şəxsi sığorta, o cümlədən: | 107,851.4 | 55,969.8 | 103,916.3 | 71,255.7 | -3.65% | 27.31% |
| Tibbi sığorta | 99,800.1 | 55,541.7 | 96,098.3 | 70,760.6 | -3.71% | 27.40% |
| Xaricə səfər edən vətəndaşların sığortası | 4,917.6 | 292.4 | 4,545.0 | 249.5 | -7.58% | -14.67% |
| Fərdi qəza və xəstəlik sığortası | 3,133.8 | 135.7 | 3,273.1 | 245.5 | 4.44% | 80.89% |
| Əmlak sığortası, o cümlədən: | 157,374.4 | 43,544.9 | 166,286.3 | 23,632.7 | 5.66% | -45.73% |
| Əmlakın sığortası, o cümlədən: | 135,496.8 | 43,407.2 | 144,870.9 | 23,455.9 | 6.92% | -45.96% |
| Hava nəqliyyatı vasitələrinin sığortası | 19,267.4 | 17.0 | 21,763.5 | 793.1 | 12.96% | 4565.14% |
| Əmlakın yanğından və digər risklərdən sığortası | 52,603.5 | 27,597.2 | 56,152.2 | 2,705.2 | 6.75% | -90.20% |
| Avtonəqliyyat vasitələrinin sığortası | 37,818.5 | 14,006.9 | 44,636.0 | 15,615.5 | 18.03% | 11.48% |
| Yüklərin (nəqliyyat) sığortası | 4,548.7 | 99.8 | 5,194.0 | 404.6 | 14.19% | 305.61% |
| Kənd təsərrüfatı heyvanlarının sığortası | 2,954.0 | 793.0 | 1,569.0 | 1,016.4 | -46.89% | 28.18% |
| Su nəqliyyat vasitələrinin sığortası | 6,240.9 | 109.6 | 4,565.1 | 8.5 | -26.85% | -92.25% |
| Dəmiryol nəqliyyatı vasitələrinin sığortası | 32.5 | | 49.8 | | 53.14% | |
| Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 11,776.1 | 783.8 | 10,855.8 | 2,912.6 | -7.82% | 271.61% |
| - Işçilərin dələduzluğu sığortası | 255.2 | | 85.6 | | -66.47% | |
| Mülki məsuliyyətin sığortası, o cümlədən: | 19,026.6 | 136.8 | 17,155.2 | 119.2 | -9.84% | -12.83% |
| Hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 4,895.4 | 14.7 | 795.4 | 6.6 | -83.75% | -55.15% |
| Ümumi mülki məsuliyyətin sığortası | 10,054.3 | 92.2 | 11,101.9 | 59.2 | 10.42% | -35.72% |
| Avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 2,008.9 | 29.9 | 2,550.9 | 48.5 | 26.98% | 62.01% |
| Peşə məsuliyyətinin sığortası | 1,164.3 | | 1,707.2 | 1.8 | 46.63% | |
| Işəgötürənin məsuliyyət sığortası | 757.0 | | 718.5 | | -5.08% | |
| Yük daşıyanın mülki məsuliyyətinin sığortası | 59.5 | | 58.7 | 3.2 | -1.43% | |
| Kreditlərin sığortası | 2,405.5 | | 3,779.3 | 57.5 | 57.11% | 6313.74% |
| Qarışıq maliyyə risklərinin sığortası, o cümlədən: | 445.5 | | 480.9 | | 7.93% | |
| Işin dayanması ilə bağlı risklərdən sığorta | 445.5 | | 480.9 | | 7.93 | |
| **İcbari sığortalar üzrə - cəmi:** | **249,863.5** | **80,235.5** | **258,278.6** | **98,944.8** | **3.37%** | **23.32%** |
| Həyat sığortası üzrə | 60,652.0 | 2,410.4 | 64,912.6 | 3,169.8 | 7.02% | 31.50% |
| İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta | 60,652.0 | 2,410.4 | 64,912.6 | 3,169.8 | 7.02% | 31.50% |
| Qeyri-həyat sığortası üzrə | 189,211.5 | 77,825.1 | 193,366.0 | 95,775.0 | 2.20% | 23.06% |
| Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası | 121,515.8 | 72,679.0 | 126,001.9 | 92,988.2 | 3.69% | 27.94% |
| Daşınmaz əmlakın icbari sığortası | 66,704.1 | 4,845.7 | 66,385.6 | 2,366.7 | -0.48% | -51.16% |
| Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası | 910.3 | 16.1 | 844.4 | 104.6 | -7.24% | 548.42% |
| Sərnişinlərin icbari fərdi qəza sığortası | 56.5 | 0.0 | 101.2 | 0.0 | 79.07% | |
| Digər icbari sığorta növləri | 24.8 | 284.3 | 32.9 | 315.5 | 32.84% | 10.97% |
| **Yekun** | **935,935** | **400,387** | **1,023,707** | **553,746** | **9.38%** | **38.30%** |

Azərbaycan sığorta bazarında 2024-cü ilin ııı rübünün 2023-cü ilin mütənasib dövrü ilə müqayisə etdikdə, sığorta ödənişlərinin 400,387 min manatdan 553,746 min manata, sığorta haqlarının isə 935,935 min manatdan, 1,023,707 min manata qədər yüksəldiyi müşahidə olunur.
Bu artımda əsas pay sahibi olan sığorta növləri Həyatın yaşam sığortası (81%), Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası (5%), Avtonəqliyyat vasitələrinin sığortası (8%) növləridir.




Təqdim olunan qrafiklərdən də görünür ki, 2024-cü ilin III rübünün sığorta haqlarının həcmi 2023-cü ilin III rübü ilə müqayisədə 9.38%, ödənişlər isə 38.30% artıb. Lakin ödənişlər barəsində nəticə çıxarmazdan əvvəl, ödənişlərin strukturunu nəzərdən keçirmək vacibdir.












2024-cü ilin yanvar - sentyabr aylarının 2023-cü ilin yanvar-sentyabr ayları ilə müqayisəsindən məlum olur ki, yığımlarda könüllü sığorta növü 11% (79,357 min manat artım) artaraq 765,428 min manat olmuşdur. Ödənişlərin bölgüsündə isə könüllü sığorta üzrə ödənişlərin 42% (134,649 min manat artım)  134,649,9 min manat artaraq, bazar payının 82%-ni əhatə etdiyi müşahidə olunur.






**İcbari** TOP 3 – 2024 III rüb
Sığorta haqları üzrə




**İcbari** TOP 3 – 2024 III rüb
Sığorta ödənişlər üzrə




Müşahidə olunur ki, 2023-ci illə müqayisədə 2024-cü ildə həyatın yaşam sığortası növünün payı 71 mln manat artmış və TOP 5 könüllü sığorta məhsulları arasında 60% təşkil etmişdir. Bu göstərici sığorta ödənişlərində 78% təşkil etmişdir.

## HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
## (2023 III rüb – 2024 III rüb **haqlar**)

| № | Sığorta növü | Dinamika (min manatla) |
|---|---|---|
| 1 | Həyatın yaşam sığortası | 71,217.4 |
| 2 | Həyatın ölüm halından sığortası | 217.7 |
| 3 | Əmək qabiliyyətinin sığortası | 1,451.4 |
| 4 | Sağalmaz xəstəliklərdən sığorta | 1,494.0 |
| 5 | İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta | 4,260.6 |



# HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
# (2023 III rüb – 2024 III rüb **ödənişlər**)

| № | Sığorta növü | Dinamika (min manatla) |
|---|---|---|
| 1 | Həyatın yaşam sığortası | 138,321.1 |
| 2 | Həyatın ölüm halından sığortası | 645.9 |
| 3 | Əmək qabiliyyətinin sığortası | 77.6 |
| 4 | Sağalmaz xəstəliklərdən sığorta | 231.7 |
| 5 | İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta | 759.4 |




2024-cü ilin III rübünün ötən ilin eyni dövrünə nisbətən artmasında əsas pay sahibi həyat sığortası məhsullarıdır ki, bu da bütün sığorta bazarının 55%-ni (560,138 min manat) təşkil edir. Qeyri-həyat sığortasında isə bu pay 45% (463,568 min manat) təşkil edir. Ödənişlərdə isə ümumi ödənişlərin 65%-i (363,082 min manat) həyat sığortasının, 35%-i (363,083 min manat) isə qeyri-həyat sığorta növlərinin payına düşür.

# QEYRİ-HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
# (2023-2024 III rüb **haqlar**)

| Sığorta növü | Dinamika (min manatla) | |
|---|---|---|
| Fərdi qəza və xəstəlik sığortası | 139.3 | 4.44% |
| Əmlak sığortası, o cümlədən: | 8,911.9 | 5.66% |
| Əmlakın sığortası,  o cümlədən: | 9,374.1 | 6.92% |
| Hava nəqliyyatı vasitələrinin sığortası | 2,496.2 | 12.96% |
| Əmlakın yanğından və digər risklərdən sığortası | 3,548.7 | 6.75% |
| Avtonəqliyyat vasitələrinin sığortası | 6,817.5 | 18.03% |
| Yüklərin (nəqliyyat) sığortası | 645.3 | 14.19% |
| Dəmiryol nəqliyyatı vasitələrinin sığortası | 17.3 | 53.14% |
| Ümumi mülki məsuliyyətin sığortası | 1,047.6 | 10.42% |
| AVSMMS | 542.0 | 26.98% |
| Peşə məsuliyyətinin sığortası | 542.9 | 46.63% |
| Kredit sığortası, o cümlədən: | 1,373.8 | 57.11% |
| Kreditlərin sığortası | 1,373.8 | 57.11% |
| Qarışıq maliyyə risklərinin sığortası,  o cümlədən: | 35.3 | 7.93% |
| Işin dayanması ilə bağlı risklərdən sığorta | 35.3 | 7.93% |
| AVSMMİS | 4,486.1 | 3.69% |
| Sərnişinlərin icbari fərdi qəza sığortası | 44.7 | 79.07% |
| Digər icbari sığorta növləri | 8.1 | 32.84% |

| | Sığorta növü | Dinamika (min manatla) |
|---|---|---|
| -3.71%% | Tibbi sığorta | -3,701.8 |
| -7.58%% | Xaricə səfər edən vətəndaşların sığortası | -372.6 |
| -46.89%% | Kənd təsərrüfatı heyvanlarının sığortası | -1,385.0 |
| -26.85%% | Su nəqliyyat vasitələrinin sığortası | -1,675.8 |
| -7.82%% | Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | -920.4 |
| -66.47%% | Əmlakın sığortası ilə bağlı digər siniflər,  o cümlədən: | -169.7 |
| -66.47%% | - Işçilərin dələduzluğu sığortası | -169.7 |
| -9.84%% | Mülki məsuliyyətin sığortası, o cümlədən: | -1,871.4 |
| -83.75%% | HNVSMMS | -4,100.0 |
| -5.08%% | Işəgötürənin məsuliyyət sığortası | -38.4 |
| -1.43%% | Yük daşıyanın mülki məsuliyyətinin sığortası | -0.9 |
| -100.00% | Su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | -87.2 |
| -0.48% | Daşınmaz əmlakın icbari sığortası | -318.4 |
| -7.24% | Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası | -66.0 |

# QEYRİ-HƏYAT SIĞORTASI ÜZRƏ DİNAMİKA
# (2023-2024 III rüb **ödənişlər**)

| Sığorta növü | Dinamika (min manatla) |
|---|---|
| Tibbi sığorta | 15,218.9 |
| Fərdi qəza və xəstəlik sığortası | 109.8 |
| Hava nəqliyyatı vasitələrinin sığortası | 776.1 |
| Avtonəqliyyat vasitələrinin sığortası | 1,608.6 |
| Yüklərin (nəqliyyat) sığortası | 304.9 |
| Kənd təsərrüfatı heyvanlarının sığortası | 223.4 |
| Kənd təsərrüfatı bitkiləri məhsullarının sığortası | 2,128.9 |
| AVSMMS | 18.6 |
| Kreditlərin sığortası | 56.6 |
| İcbari sığortalar üzrə - cəmi: | 18,709.3 |
| AVSMMİS | 20,309.2 |
| DƏİS | 88.4 |
| Digər icbari sığorta növləri | 31.2 |







| Sığorta növü | Dinamika (min manatla) |
|---|---|
| Xaricə səfər edən vətəndaşların sığortası | -42.9 |
| Əmlak sığortası, o cümlədən: | -19,912.2 |
| Əmlakın sığortası, o cümlədən: | -19,951.3 |
| Əmlakın yanğından və digər risklərdən sığortası | -24,892.0 |
| Su nəqliyyat vasitələrinin sığortası | -101.1 |
| Mülki məsuliyyətin sığortası, o cümlədən: | -17.5 |
| HNVSMMS | -8.1 |
| Ümumi mülki məsuliyyətin sığortası | -32.9 |
| Daşınmaz əmlakın icbari sığortası | -2,478.9 |

# HƏYAT SIĞORTA ŞİRKƏTLƏRİ ÜZRƏ DİNAMİKA

| № | Sığortaçının adı | 2023 III rüb | | 2024 III rüb | | Dinamika | |
|---|---|---|---|---|---|---|---|
| | | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Haqlar | Ödənişlər |
| 1 | "Atəşgah Həyat" Sığorta Şirkəti ASC | 48,934 | 19,086 | 63,946 | 36,901 | 30.68% | 93.34% |
| 2 | "Xalq Həyat" Sığorta Şirkəti ASC | 7,264 | 1,366 | 8,071 | 4,848 | 11.11% | 254.96% |
| 3 | "Qala Həyat" Sığorta Şirkəti ASC | 19,224 | 2,543 | 18,945 | 3,552 | -1.45% | 39.67% |
| 4 | "Meqa Həyat Sığorta" ASC | 3,316 | 14 | 6,941 | 703 | 109.33% | 5032.63% |
| 5 | "PAŞA Həyat Sığorta" ASC | 402,759 | 200,038 | 462,236 | 317,080 | 14.77% | 58.51% |

## Həyat sığorta şirkətləri dinamika (sığorta haqları üzrə)






# Həyat sığorta şirkətləri TOP-5 (sığorta ödənişləri üzrə)






# QEYRİ-HƏYAT SIĞORTA ŞİRKƏTLƏRİ ÜZRƏ DİNAMİKA

| № | Sığortaçının adı | 2023 III rüb | | 2024 III rüb | | Dinamika | |
|---|---|---|---|---|---|---|---|
| | | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Sığorta haqları (min manatla) | Sığorta ödənişləri (min manatla) | Haqlar | Ödənişlər |
| 1 | "A-Qroup Sığorta Şirkəti" ASC | 12,358 | 10,719 | 10,635 | 9,756 | -13.94% | -8.98% |
| 2 | "Aqrar Sığorta" ASC | 14,648 | 1,408 | 12,268 | 3,771 | -16.24% | 167.80% |
| 3 | "AtaSığorta" ASC | 7,555 | 2,358 | 7,903 | 3,098 | 4.61% | 31.39% |
| 4 | "Atəşgah" Sığorta Şirkəti ASC | 30,886 | 12,515 | 46,972 | 17,394 | 52.08% | 38.98% |
| 5 | "Azərbaycan Sənaye Sığorta" ASC | 14,529 | 27,458 | 19,228 | 7,199 | 32.34% | -73.78% |
| 6 | "AzSığorta" ASC | 6,566 | 6,575 | 7,075 | 1,156 | 7.75% | -82.43% |
| 7 | "Bakı Sığorta" ASC | 4,080 | 2,014 | 1,515 | 1,349 | -62.88% | -33.01% |
| 8 | "Xalq Sığorta" ASC | 17,094 | 18,061 | 16,704 | 7,763 | -2.28% | -57.02% |
| 9 | "İpək Yolu Sığorta" ASC | 15,549 | 167 | 5,261 | 247 | -66.17% | 47.96% |
| 10 | "Qala Sığorta" ASC | 47,969 | 6,974 | 61,423 | 11,369 | 28.05% | 63.03% |
| 11 | "Meqa Sığorta" ASC | 24,822 | 6,614 | 27,354 | 10,489 | 10.20% | 58.60% |
| 12 | "PAŞA Sığorta" ASC | 226,577 | 67,620 | 247,231 | 103,261 | 9.12% | 52.71% |
| **Lisenziyası ləğv edilmiş sığortaçılar** | | **31,803** | **14,856** | - | **13,810** | **-100.00%** | **-7.05%** |

# Qeyri-həyat sığorta şirkətləri TOP-5 (sığorta haqları üzrə)




# Qeyri-həyat sığorta şirkətləri TOP-5 (sığorta ödənişləri üzrə)



# “AzSığorta” ASC - 18

“AzSığorta” Açıq Səhmdar Cəmiyyəti 2006-cı ilin 10 oktyabr tarixində dövlət qeydiyyatına alınmışdır. Lisenziyaya görə şirkət, bütün klassik sığorta məhsulları (həyat sığortası istisna olmaqla) və bütün icbari növlər (AVSMMİS istisna olmaqla), eləcə də təkrarsığorta dəstəyi təklif edir.

Şirkət Azərbaycanın regionlarında geniş təmsil olunur: ölkədə təxminən 200 agent, 7 filial və 2 nümayəndəlik fəaliyyət göstərir. Şirkətin nizamnamə kapitalı 20 milyon manat təşkil edir.

Şirkət dünyanın ən böyük sığorta və təkrarsığorta şirkətləri ilə uzunmüddətli işgüzar əlaqələrə malikdir. Əməkdaşlıq birbaşa və beynəlxalq brokerlər (Marsh Limited, AON Benfield və digər brokerlər) vasitəsilə həyata keçirilir.

Şirkətin xarici təkrarsığorta partnyorları “SCOR”, “Swiss Re”, “Hannover Re”, “AIG”, “TRUST RE”, “Lloyd's” London bazarının iştirakçıları və digər əsas beynəlxalq sığorta və təkrarsığorta şirkətləri kimi ən böyük beynəlxalq təkrarsığortaçılardır.

Şirkət Azərbaycan Sığortaçılar Assosiasiyasının və İcbari Sığorta Bürosunun fəal üzvüdür.

Azərbaycan Sığortaçılar Assosiasiyası olaraq “AzSığorta” ASC-nin rəhbərliyinə və kollektivinə uğurlar arzulayırıq.



# "AzRe Təkrarsığorta" ASC – 17

"AzRe Təkrarsığorta" Açıq Səhmdar Cəmiyyəti 2007-ci ilin 10 oktyabr tarixində dövlət qeydiyyatına alınıb. Həmin ilin noyabr ayında Maliyyə Nazirliyi tərəfindən təkrarsığorta fəaliyyəti aparmaq üçün lisenziya alıb və 2012-ci ilin noyabr ayında müddətsiz lisenziyaya sahib olub. "AzRe Təkrarsığorta" ASC Azərbaycan sığorta bazarında birbaşa təkrarsığorta fəaliyyəti ilə məşğul olan yeganə şirkətdir. Şirkət, adi əmlak risklərindən kompleks sənaye risklərinə qədər bütün riskləri təkrarsığorta edir.

2016-cı ildə şirkətin Nizamnamə kapitalı 10 milyon manat artırılaraq 50 milyon manata çatdırılıb.



AZƏRBAYCAN
SIĞORTAÇILAR
ASSOSİASİYASI

Index: AZ1000, Baku, Azerbaijan
Ünvan: Mikayıl Useynov 63
Tel\fax: (+994 12) 492 80 45
E-mail:office@asa.az

www.asa.az